## Tovuz döyüşlərindən 4 il ötdü



# Zəfər yolumuza işıq salan günlər

**Azərbaycan Silahlı Qüvvələrinin qəhrəmanlıq salnaməsinin qızıl səhifələrindən sayılan 2020-ci il 12–17 iyul tarixli Tovuz döyüşləri Vətən müharibəsində Qələbəmizin aydın eşidilən addım səsləri olub.**



...Sumqayıtda Milli Qəhrəman Polad Həşimovun adını daşıyan küçənin başlanğıcındakı lövhənin qarşısındayam. Bura Səməd Vurğun küçəsi ilə kəsişən yerdir. Böyük şairin misraları yadıma düşür:

*Gəl çıxaq cəbhəyə, əmr edir Vətən,*
*Sən də bu meydanda kükrəyib çağla!*
*Düşmənin gülləsi dəysə sinəmdən,*
*Mehriban əlinlə yaramı bağla!*

Polad Həşimov Qəbələ rayonunun Vəndam kəndində anadan olub. Ailələri ilə birgə Sumqayıt şəhərinə köçdüyündən buradakı 28 və 34 nömrəli məktəblərdə orta təhsil alıb. Sonra Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbini bitirib və taqım komandirliyindən "general-mayor" ali hərbi rütbəsinədək yüksəlib. 4 iyul 2020-ci il tarixdə Ermənistan–Azərbaycan sərhədinin Tovuz istiqamətində düşmən təxribatlarının qarşısını alarkən qəhrəmancasına şəhid olub.

Onun nəşi Sumqayıta, ailəsinin yaşadığı 13-cü mikrorayona gətirilən gecə həyətdə, küçədə iynə atılsaydı, yerə düşməzdi. Kişi, qadın, böyük, uşaq – hamı gözləyirdi ki, qarşılanması daha da urvatlı olsun. Bu, həm də qəhrəman qarşısında camaatın vəfa borcu idi… Çox keçmədən hərbçilərin müşayiəti ilə Poladı gətirdilər. Üçrəngli Vətən bayraqları mükəddər şəkildə yellənirdi. Həmin son görüş həm də qürur, iftixar görüşümüz idi…

Vətənpərvərlik tədbirlərində Poladın anası Səmayə xanımı dəfələrlə görmüş, çıxışlarını dinləmişəm. "Mən səngər generalı yetişdirmişdim... Bayraqları ucaldan oğulların yeri behişt olsun!.." – deyən ana daim bu fikri bu və ya digər formada təkrarlayır ki, bu gün qalib dövlət və qalib xalqıq. Biz övladlarımızı itirsək də şərəfli ad qazandıq. Xalqımız, Vətənimiz sağ olsun!"

Amin deyərək xatırlayırıq ki, Polad Həşimov Tovuz döyüşlərinin 3-cü günü erməni ordusunun hücumu nəticəsində polkovnik İlqar Mirzəyev, mayor Anar Novruzov və Namiq Əhmədov, daha bir neçə hərbi qulluqçu və Ağdam kəndinin 76 yaşlı sakini həlak olub. Düşmən isə layıqli cavabını və cəzasını alıb.

Tovuz döyüşləri çağdaş Azərbaycanın hərb tarixinə zəfər döyüşü kimi daxil oldu. Dünya gördü ki, rəşadətli Ordumuz düşmənin hər cür təxribatlarının və gözlənilməz hücumlarının qarşısını qətiyyətlə almaqda çətinlik çəkmir. 100-dən çox hərbçisi və onlarla hərbi obyektləri məhv edilən Ermənistan silahlı bölmələrinin şəxsi heyəti hətta səngərləri qoyub qaçdı. Döyüşlər zamanı bir neçə gün ərzində yüzlərlə yaralı və ölü daşıyan ermənilər itkilərdən dəhşətə gəldilər.

Milli Ordumuz daha öncə Zəfərə gedən yolu 2016-cı ilin şanlı Aprel döyüşlərində, 2018-ci ilin uğurlu Günnüt əməliyyatında addım-addım qət etmişdi. Tovuz döyüşləri də ölkəmizə qarşı təxribatçı əməllərindən əl çəkməyən Ermənistan ordusunun növbəti mənfur niyyətini öz başında çatladan uğurlu əməliyyatlardan biri kimi tarixə düşdü. Tovuzda hərbi təxribat törətdiyi üçün burnu ovulan erməni faşistləri 2 ay sonra – sentyabrın 27-də başlanan 44 günlük Vətən müharibəsində daha böpyük zərbələr alaraq, yerlə-yeksan edildilər.

Bəli, Tovuz döyüşləri Azərbaycanda xalq və Prezident, xalq və ordu birliyinin yenidən təcəssümünə çevrildi. Silahlı Qüvvələrimiz bir daha göstərdilər ki, təcavüzkar Ermənistan ordusu onların gücü qarşısında tamamilə aciz və zəifdir. Beləliklə də Azərbaycanın Vətən müharibəsində qazandığı Böyük Zəfərin ilk qığılcımlarından olan Tovuz döyüşləri Ermənistana tarix boyu davam edəcək böyük məyusluq, məğlubiyyət acısı yaşatdı.

**Ə.ƏLİYEV**
**XQ**